# Vasitəçilərin biganəliyi Ermənistanı harınlaşdırır

## *ATƏT-in Minsk qrupunun əsas məqsədi BMT Təhlükəsizlik Şurasının qətnamələrini yerinə yetirməkdən ibarət olmalıdır*

ATƏT Avropada sülhün qorunub saxlanılmasına və dövlətlərarası əməkdaşlığın genişləndirilməsinə xidmət edən bir təşkilat kimi bu günə qədər Ermənistan –Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində vasitəçilik missiyasını yerinə yetirsə də, heç bir konkret addım atmağa nail olmaması ilə diqqət mərkəzindədir. Təşkilatın münaqişənin həllini sürətləndirmək üçün konkret mexanizminin olmaması burada müəyyən rol oynasa da, etiraf etmək lazımdır ki, ATƏT-in işğalçı dövlətə qarşı müəyyən təzyiqlər göstərmək və dünya birliyini bu prosesə cəlb etmək imkanları var. Ancaq hələ də vasitəçilər Ermənistanın işğalçılıq siyasətinə son qoyacaq əməli addımlar atmırlar.

Xatırladaq ki, 1999-cu ildə İstanbulda keçirilən ATƏT-in üzv ölkələrinin dövlət və hökumət başçılarının növbəti Zirvə görüşündə iştirak edən Azərbaycan İstanbul Bəyannaməsinə və Avropa Təhlükəsizliyi Xartiyasına qoşulmuşdu. İstanbul toplantısında da Azərbaycan öz ədalətli mövqeyini dünyaya bəyan etmək üçün mühüm addımlar atmışdı. Belə ki, İstanbul sammitində ulu öndər Heydər Əliyevin apardığı səmərəli danışıqlar Ermənistanın qeyri-konstruktiv mövqeyini bir daha nümayiş etdirmişdi. Rəsmi İrəvan faktiki olaraq sülh sazişinin imzalanması prosesini hər vəchlə ləngitməyə çalışmaqla diqqəti öz üzərinə çəkmişdi. Halbuki, sammitdən əvvəl bir çox beynəlxalq müşahidəçilər, o cümlədən zirvə görüşünün iştirakçıları sülh sazişinin imzalanacağına böyük ümid bəsləmişdilər, İstanbul sammitində qəbul olunmuş deklarasiyanın 20 və 21-ci maddələri tamamilə Ermənistan – Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə həsr olunmuşdu və burada sülh prosesinin davam etdirilməsinin zəruriliyi qəti şəkildə bildirilmişdi.

Heç kimə sirr deyil ki, Ermənistan – Azərbaycan, Dağlıq Qarabağ münaqişəsində Ermənistan beynəlxalq qanunları kobud surətdə pozmuşdur. Ermənistan "Xalqların öz müqəddəratını təyinetmə prinsipini" əsas götürərək və "Dağlıq Qarabağ xalqının" müstəqil suveren olmasını iddia edərək, bunu Dağlıq Qarabağ xalqının Azərbaycana qarşı müharibəsi, Azərbaycanın daxili problemi kimi qələmə verməyə çalışır. Məlumdur ki, Dağlıq Qarabağda Ermənistanın hərbi birləşmələri müharibə aparmışdır və indi də orada qalmaqdadır. Ermənistan silahlı qüvvələrinin başqa bir dövlətin ərazisində olması artıq işğalçılıq faktını təsdiq edir və "Dağlıq Qarabağın ordusu" da milli-separatçı terror aksiyaları ilə məşğul olmuşdur və indi də bu terror davam edir. Ermənistanın "Xalqların öz müqəddəratını təyinetmə hüququnu" əsas götürməsi siyasi avantüradan başqa bir şey deyildir. Münaqişə nəticəsində Dağlıq Qarabağın azərbaycanlı əhalisi ermənilər tərəfindən soyqırıma məruz qalaraq qovulmuşlar və məhz buna görə də "öz müqəddəratını təyinetmə"dən danışarkən Dağlıq Qarabağda yaşamış və oradan qovulmuş azərbaycanlıları da nəzərə almaq lazımdır.

***"Münaqişələrin qarşısını həm dinc yolla, həm də hərbi yolla almaq olar. Bundan başqa, münaqişənin dinc yolla həlli zamanı müxtəlif vasitələrdən – araşdırma, danışıqlar, barışdırma, beynəlxalq arbitraj, vasitəçilikdən istifadə edilir. Ən əsası, münaqişələrin həllində dövlət sərhədlərinin pozulmazlığına, ölkələrin ərazi bütövlüyü və beynəlxalq mübahisələrin dinc yolla həlli prinsiplərinə əməl edilməlidir. Beynəlxalq təşkilatlar da vasitəçilik missiyasında məhz bu prinsipləri rəhbər tutaraq münaqişənin həllinə təsir göstərməyə çalışırlar. Belə təşkilatlardan biri də ATƏT-in Minsk qrupudur ki, artıq 30 ildir Dağlıq Qarabağ münaqişəsinin həlli ilə məşğuldur". Lakin təəssüflər olsun ki, ATƏT-in Minsk qrupu ötən müddət ərzində Dağlıq Qarabağ münaqişəsinin həllinə heç bir töhfə verməməsi ilə yadda qalmışdır.***




Ancaq ATƏT-in Minsk qrupu uzun illərdir bu sadə həqiqətlərin fonunda işğalçılara yerini göstərmir, əksinə, təşkilatın işğalçıların qanunsuz əməllərinə hər hansı bir təsiredici reaksiya verməməsi Ermənistanı Azərbaycana qarşı və ümumiyyətlə, regionda növbəti qanunsuzluqlar həyata keçirməsinə həvəsləndirir. Məsələn, Ermənistan işğal altında saxladığı Azərbaycan torpaqlarında qeyri-qanuni məskunlaşdırma siyasətini davam etdirir. Avqustun əvvəllərində Livanın paytaxtı Beyrutun dəniz limanında baş verən partlayış Dağlıq Qarabağa və ətraf rayonlara qanunsuz köçürülmə prosesini davam etdirmək üçün işğalçı ölkəyə yeni fürsət vermişdir. Belə ki, Dağlıq Qarabağdakı qondarma rejimin başçısı Araik Arutunyan Livanda yerləşən Kilikiya Katolikosluğunun rəhbəri, diaspor ermənilərinin dini lideri I Aramla danışıq əsnasında Dağlıq Qarabağın Livandan 100-150 erməni ailəsini qəbul etməyə hazır olduğunu bildirmişdir.

Əlbəttə, ermənilərin bu qanunsuz əməlləri Dağlıq Qarabağ münaqişəsinin həllinə ancaq mənfi təsir göstərir. Amerikalı ekspert Piter Teys Trendə açıqlamasında bildirmişdir ki, digər etnik qrupların Azərbaycanın suveren ərazilərinə köçürülməsi Dağlıq Qarabağda vəziyyəti ciddi şəkildə çətinləşdirir. Cənab Teysin sözlərinə görə, müharibədən əziyyət çəkən Suriyadan qaçan ailələrin Dağlıq Qarabağa köçürülməsi Qafqazın və bütün Avropanın polikultural və dinlərarası strukturuna ziyan vura bilər. Amerikalı mütəxəssis düşünür ki, Avropa İttifaqının qurumlarının (Avropa Şurası və Avropa Komissiyası) Ermənistan hökumətinin bu fəaliyyətinə göz yumması narahatlıq doğurur: "Ermənistan rəhbərliyi və onun faşist liderləri daim beynəlxalq hüququ pozur. Ermənistandakı rejim Avropanın demokratik standartlarına böyük təhlükə yaradır".

Bundan başqa, qondarma "Dağlıq Qarabağ Respublikası"nın liderlərinin beynəlxalq hüququ, Avropa İttifaqının insan haqlarının müdafiəsi barədə Konvensiyasını, insan hüquqlarına aid olan və işğal olunmuş ərazilərdə irqlərin süni şəkildə qarışdırılmasını qadağan edən, Avropa Parlamentinin təsdiq etdiyi bütün qətnamələri kobud şəkildə pozduqlarını vurğulayan cənab Teys xüsusilə vurğulayır ki, Ermənistan bu cinayətkar fəaliyyəti dayandırmalı və beynəlxalq arenada məsuliyyətli iştirakçıya çevrilməlidir. Ancaq ATƏT-in Minsk qrupunun səssizliyi Ermənistanın məsuliyyətsiz ölkə kimi qalmasına şərait yaradır.

Amerikalı ekspert, jurnalist, ADA Universitetinin fəxri doktoru Tomas Qolts da bildirmişdir ki, Cenevrə konvensiyalarına əsasən, dinc sakinlərin döyüş zonalarına, həmçinin işğal olunmuş ərazilərə köçürülməsi hərbi cinayətdir. O qeyd etmişdir ki, bu cür addımlar beynəlxalq məsuliyyətə yol açır.

Bu gün acı reallıq ondan ibarətdir ki, ATƏT-in Minsk qrupu mövcud vəziyyətin daha çox moderatoru və meneceri kimi fəaliyyət göstərir. Halbuki Minsk qrupunun əsas məqsədi mümkün müharibə ehtimalını azaltmaq və münaqişənin beynəlxalq qanunlara uyğun həllinə nail olmaqdır. Əlbəttə, Minsk qrupunun mandatına uyğun fəaliyyətsizliyi cəzasız qalan, təsir göstərilməyən Ermənistanın gündəngünə harınlaşmasına şərait yaradır. Şübhəsiz, Ermənistanın regionda apardığı süni köç siyasəti regional təhlükəsizliyə və bölgənin sabitliyinə ciddi təhdiddir və beynəlxalq təşkilatlar Ermənistanın bölgədə demoqrafik vəziyyəti süni şəkildə dəyişdirməsinin qarşısını ciddi şəkildə almalıdırlar. Artıq bir çox tanınmış mütəxəssislər ATƏT-in Minsk qrupunun Dağlıq Qarabağ münaqişəsində rolunu yüksək qiymətləndirmirlər. Məsələn, ABŞ-ın Azərbaycandakı keçmiş səfiri və ATƏT-in Minsk qrupunun sabiq həmsədri, hazırda Atlantik Şurasının eksperti Metyu Brayza düşünür ki, Azərbaycanla Ermənistan arasındakı münaqişəni yoluna qoymaq məqsədi daşıyan mövcud beynəlxalq vasitəçilik mexanizmi səmərəsiz görünür.

Digər siyasi müşahidəçilər də münaqişənin həllində irəliləyişə nail olmaq üçün Minsk qrupunun tam tərkibdə fəaliyyətinin yenidən canlandırılmasının, qrupun bütün üzvlərinin problemin həllinə töhfə verməsinə şərait yaradılmasının vacibliyini qeyd edirlər. ATƏT-in Minsk qrupunun həmsədrlərinin mandatında isə açıq-aydın yazılmışdır ki, həmin mandat BMT Təhlükəsizlik Şurasının qətnamələrinə, Helsinki Yekun Aktına və beynəlxalq hüquqa əsaslanır. Danışıqlar prosesinin mahiyyəti Azərbaycan ərazilərinin işğaldan azad olunmasını və azərbaycanlı qaçqınların öz yurdlarına qaytarılmasını təmin etmək, Azərbaycanın beynəlxalq miqyasda tanınmış sərhədləri çərçivəsində onun ərazi bütövlüyünü bərpa etməkdir. Rəsmi Bakı dəfələrlə bildirmişdir ki, Minsk prosesində 11 ölkə iştirak edir və onlar hamısı fəal olmalıdır. Bundan başqa, Minsk prosesinin bütün iştirakçıları çağırılmalı və əsas diqqət danışıqlar prosesinin mahiyyəti üzərində cəmləşdirilməlidir.

Bir sözlə, hərbi işğal faktı mövcuddur və ATƏT-in Minsk qrupu fəaliyyətini bu istiqamətdə fəallaşdırmalıdır. Yəni vasitəçilər bu işğal faktına siyasi və hüquqi qiymət verməlidirlər. Yalnız belə qiymətləndirilmənin əsasında tərəflər münaqişənin həllində irəliyə doğru addım ata bilərlər. Ancaq, təəssüflər olsun ki, bu gün tam başqa mənzərə ilə qarşılaşırıq. Ermənistan rəhbərliyi xalqını sülhə hazırlamaq əvəzinə işğal etdiyi Azərbaycan torpaqlarına qanunsuz şəkildə əhali köçürür. Ermənistanın bu qanunsuz hərəkətləri, təbii ki, danışıqlar prosesinin mənasını tamamilə heçə endirir. Azərbaycanın işğal edilmiş ərazilərində qeyri-leqal hərəkətlərlə bağlı çoxlu faktlar var və bu məsələlərə münasibətdə ATƏT-in Minsk qrupunun konkret mövqeyi sezilmir. Unudulmamalıdır ki, BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsi həmsədrlərin mandatıdır və Minsk qrupunun əsas məqsədi həmin qətnamələrin tələblərini yerinə yetirməkdən ibarət olmalıdır. Əks təqdirdə, ATƏT-in Minsk qrupunun vasitəçi kimi fəaliyyətinin heç bir mənası qalmır.

***Səbuhi MƏMMƏDOV,***
***"Xalq qəzeti"***